# Sərhədlərimiz, ərazi bütövlüyümüz etibarlı qorunur

*Bəzən elə günlər olur ki, onların əhəmiyyəti nə zamana, nə də məkanla ölçülə bilər. Bu cür günlər bir xalqın ruhuna hopur, onun kimliyini, mübarizəsini və yaddaşını canlandırır, əsrlərin unudulmaz xatirələrini yaradır. Onlar millətin ruhunda əbədi yaşayacaq müqəddəs nişanələrə çevrilir və gələcək nəsillərə örnək olur.*

26 İyun - Silahlı Qüvvələr Günü dövlət quruculuğu və hərbi strukturun formalaşması, eyni zamanda, millətin öz varlığını, istiqlalını və suverenliyini qorumaq üçün ayağa qalxdığı, nəfəsini, qüvvəsini, qəlbini silaha, sipərə və bayrağa çevirdiyi müqəddəs bir anın simvoludur. Bu günün mənası tarixi qanunauyğunluqla yanaşı, milli şüurun dərin qatlarına nüfuz etmiş, hər bir vətəndaşın ruhunda daşıdığı qürur və məsuliyyət kimi ifadə olunur.

26 iyun günü, xalqın dağlar qədər möhkəm, sarsılmaz, həyatın bütün çətinliklərinə sinə gərən gücdədir. Bu qəlb hər bir çətinliyə, düşmən təhdidlərinə qarşı dik dayanır, sarsılmaz iradəsi ilə gələcəyə doğru parlaq işıq saçır. Ruh isə qılıncın parıltısı qədər iti və kəskindir, sanki hər an qələbəyə doğru şəfəq saçan bir işıqdır. Xalqın yaddaşı isə səngərin dərinliyi qədər möhkəm və genişdir, burada hər qəhrəmanın, hər şəhidin, hər vətən uğrunda canından keçənin xatirəsi saxlanılır, əbədiləşir.

Bu gün yalnız bir tarixi hadisənin xatırlanması deyil, eyni zamanda milli iradənin, vətənpərvərlik ruhunun və mənəvi dəyərlərin təntənəsidir. Azadlıq, müstəqillik və vətən sevgisi yolunda yaşadığı çətinliklərin, qurbanların və zəfərlərin simvoludur. Millətin öz varlığını, tarixi taleyini və gələcəyini qorumaq üçün göstərdiyi sədaqətin və fədakarlığın poetik və elmi əks-sədasıdır. Hər birimiz üçün bu gün həm də milli yaddaşın, milli ruhun yenidən doğuşunun təcəssümüdür. Bu tarix xalqımızın keçdiyi yollardan, qarşılaşdığı sınaqlardan alınan dərslərin, mübarizənin və ümummilli həmrəyliyin təzahürüdür.

Azərbaycan Xalq Cümhuriyyəti tarixin səhifələrində sanki səhrada açan incə bir lalə kimi parladı. Qısa ömürlü olsa da, böyük qürurla və şərəflə dolu idi. 1918-ci ilin 26 iyun tarixində qəbul olunan qərarla ordu quruculuğu başlanıldı. Bu qərar, xalqın azadlıq və müstəqillik arzularının ən mühüm təzahürü oldu. Həmin ordunun məqsədi sadəcə torpağı qorumaq deyil, xalqın azadlığını qorumaq idi. Bu ordunun əsgərləri sərhəddə, həyat və ölüm arasında dayanaraq, yalnız Vətəni düşünürdülər. Azərbaycan Xalq Cümhuriyyətinin ömrü qısa olsa da, ruhu heç vaxt sönmədi. O ruh xalqın qan yaddaşında dərin kök saldı və nəsildən-nəslə ötürülərək hər bir gəncin, ordu sıralarında yer alan hər bir əsgərin qəlbində yenidən alovlandı.

1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdə xalq anladı ki, bayrağı ucaldan əllər güclü ordusuz heç nədir. Lakin o illər çox ağır keçirdi. Ordu zəif, xalq narahat, torpaqlar işğal altında idi. Belə ağır vəziyyətdə dövlətin rəhbərliyinə xalqın çağırışı ilə Heydər Əliyev gətirildi. Çünki Azərbaycan xalqının yaddaşında Heydər Əliyevin hakimiyyətə birinci gəlişi barədə xatirələr dərin kök salmışdı. Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəlişi ilə ölkəmizin ictimai-siyasi həyatında dərin və köklü dəyişikliklər baş verdi. Onun uzaqgörən siyasəti, müdrik rəhbərliyi və milli maraqlara əsaslanan fəaliyyəti nəticəsində bir çox sahələrdə, o cümlədən hərbi quruculuq sahəsində mühüm islahatlar həyata keçirildi. Məhz Ulu Öndərin təşəbbüsü və qətiyyəti ilə Azərbaycanda milli hərbi kadrların hazırlanması məsələsinə xüsusi diqqət yetirildi. Bu istiqamətdə atılan addımlar strateji əhəmiyyət daşıyırdı və gələcəkdə güclü, peşəkar ordunun formalaşması üçün əsaslı zəmin yaratdı.

Ulu Öndər Heydər Əliyev Azərbaycan gənclərinin hərbi sahədə təhsil almaları üçün müxtəlif ali hərbi məktəblərə göndərilməsinə nail oldu. Belə ki, Heydər Əliyev 1971-ci ildə böyük zəhmət bahasına Azərbaycanda hərbi kadrlar hazırlanan məktəbin - görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan Hərbi Liseyin yaradılmasına nail oldu. Sözügedən məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrların hazırlanmasına gətirib çıxardı. Ulu Öndər Heydər Əliyevin sayəsində azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində oxuması, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunması mümkün oldu. Bu isə gələcək



müstəqil Azərbaycan Ordusunun peşəkar kadr potensialının bünövrəsinin əsasını qoydu. Bu baxımdan tam əsasla söyləmək olar ki, müasir Azərbaycan Silahlı Qüvvələrinin inkişaf və formalaşma tarixi məhz Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Onun hərbi sahəyə göstərdiyi xüsusi diqqət və qayğı, milli ordu quruculuğuna verdiyi töhfələr gələcəkdə Azərbaycanın müstəqilliyini qoruyacaq güclü silahlı qüvvələrin formalaşmasına imkan yaratdı.

1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkədə ordu quruculuğu işlərini daha da sürətləndirdi. Onun dövründə orduya göstərilən diqqət nəticəsində Silahlı Qüvvələrimiz struktur baxımından təkmilləşdi, hərbi texnika və kadr hazırlığı sahəsində ciddi addımlar atıldı, vətənpərvərlik ruhunda zabit və əsgərlərin yetişdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirildi.

Ulu Öndərin hakimiyyətə gəlişi yalnız siyasi sabitlik deyil, həm də xalqın qürurunun, ruhunun bərpası oldu. Heydər Əliyev ordu quruculuğuna xalqın övladı kimi yanaşdı. Əsgərin əlindəki silahdan öncə qəlbindəki inamı gücləndirdi, çünki yaxşı bilirdi ki, əsgər torpağı sevmədən süngü qaldırmaz, bayrağı anlamadan onu qoruyacaq əl də titrəyər.

Bu yeni ordu artıq təkcə döyüşən deyil, həm də düşünən, anlayan və hiss edən bir güc kimi formalaşırdı.

Zaman keçdikcə, siyasi səhnədə Ulu Öndərin siyasi kursunu layiqli davam etdirən Prezident İlham Əliyev atasının qoyduğu möhkəm təməl üzərində sadəcə binalar tikmədi, bəşər tarixinə qızıl hərflərlə yazılmış böyük qələbə - Zəfər minarəsini ucaltdı. İlham Əliyev ordunu yalnız müasir texnika ilə təmin etmədi, onu tarixi ədalət simvoluna çevirdi. Onun siyasəti yalnız hərbi strategiya xalqın ruhunu silaha çevirən, hər bir əsgərin qəlbində dərin məna doğuran liderlik nümunəsi idi. Orduda təkcə güllə və mərmi yox, şəhidlərin ruhu, əsir yurdun həsrəti, ədalət və qələbə arzusu vardı. Ali Baş Komandan orduya təkcə texnika deyil, güc, iradə verdi və tarixi ədalətin bərpasına səbəb olacaq ümummilli vəzifəyə doğru aparan hədəfləri göstərdi.

Nəhayət, zaman gəldi və 2020-ci ilin sentyabrında Qarabağın dağları Azərbaycan əsgərinin addım səsləri ilə titrədi. Bu savaş 44 gün sürdü, tarixi ədalət bərpa edildi. Bu müharibə sadəcə torpaq uğrunda deyil, şəhidlərimizə, qəhrəmanlarımızın xatirəsinə olan dərin minnətdarlığın ifadəsi idi. Azərbaycan əsgəri yalnız güllə ilə deyil, dua ilə, salamla, ürəklə döyüşdü. O, səngərdə səssizcə dua etdi, dağlarda şücaət göstərdi, Şuşaya yalnız bayraq deyil, həm də ürək dolusu məhəbbətlə dırmaşdı. Bu döyüşlərdə torpaq sanki əsgərə yol açır, dağlar baş əyir, çaylar pıçıldayırdı: "Gəldin, əsgərim, gecikmədin". Şuşa azad ediləndə təkcə şəhər yox, xalqın ruhu da azad olundu. Bu zəfərin səsi yalnız Bakıda deyil, Kəlbəcərin, Laçının dağlarında eşidildi.

Müharibədən sonra başlayan paradlar isə sadəcə ordu gücünün nümayişi deyildi. 2020-ci il 10 dekabr Zəfər paradı xalqa verilmiş böyük bir təbrik, düşmənə göndərilmiş xəbərdarlıq, tarixə vurulmuş möhkəm möhür idi. Hərbi texnikalar səliqə ilə düzülmüşdü, amma hər topun, hər tankın arxasında şəhid analarının göz yaşları, qazilərin əyilməyən beli, əsgərlərin alnında dayanan qürurlu təbəssüm dayanırdı. 2023-cü ildə Şuşada keçirilən parad isə sanki bayraqla yazılmış idi.

Bu gün 26 iyun təkcə ordu deyil, bütöv xalqın günüdür. Hər bir azərbaycanlının qəlbi bir səngərə, hər körpənin baxışında bir əsgərin inamına, hər anaların duasında bir komandanın qüdrətinə çevrilir. Silahlı Qüvvələrimiz təkcə ölkənin sərhədlərini deyil, xalqın ruhunu, gələcəyini qoruyur.

Azərbaycan ordusu yurdun səsi, xalqın nəfəsi və dövlətin ürəyidir. Bu ürək döyündükcə biz yaşayırıq, bu nəfəs gəldikcə biz güclənirik. Bu gün biz hamımız o ordunun əsgəriyik düşüncəmiz, sevgimiz, dualarımız və qürurumuzla. Biz birlikdə güclüyük, birlikdə azadıq, birlikdə gələcək qururuq.

**Azər ALLAHVERƏNOV,**
**Milli Məclisin deputatı.**

Respublika .- 2025.- 26 iyun (№ 130).-